**Azərbaycan Respublikasının 2007-ci il 10 aprel tarixli 267-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə”ni “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 282-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2007-ci il 10 aprel tarixli 267-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 4, maddə 315; 2008, 3, maddə 158, 10, maddə 886) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə”nin 2-ci maddəsində “şəxsiyyət vəsiqəsi” sözlərindən sonra “və müvafiq beynəlxalq müqavilə bağlanmış xarici dövlətlərdə Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi” sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun *2018-ci il sentyabrın 1-dən* qüvvəyə minir.[1]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 aprel 2013-cü il
627-IVQD

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 27 dekabr 2013-cü il tarixli **868-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 19 yanvar 2014-cü il, 11; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 01, maddə 13**)
2. 28 aprel 2015-ci il tarixli **1276-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 6 iyun 2015-ci il, 120; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 06, maddə 682**)
3. 17 noyabr 2017-ci il tarixli **883-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 10 dekabr 2017-ci il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, I kitab maddə 2241**)
4. 29 iyun 2018-ci il tarixli **1217-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 17 iyul 2018-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1433**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 27 dekabr 2013-cü il tarixli **868-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 19 yanvar 2014-cü il, 11; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 01, maddə 13**) ilə Qanunun 2-ci maddəsində “**2014-cü il yanvarın 1-dən**” sözləri “**2015-ci il dekabrın 1-dən**” sözləri ilə əvəz edilmişdir.

28 aprel 2015-ci il tarixli **1276-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 6 iyun 2015-ci il, 120; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 06, maddə 682**) ilə Qanunun 2-ci maddəsində “**2015-ci il dekabrın**” sözləri “**2018-ci il yanvarın**” sözləri ilə əvəz edilmişdir.

17 noyabr 2017-ci il tarixli **883-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 10 dekabr 2017-ci il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, I kitab maddə 2241**) ilə 2-ci maddədə “**2018-ci**” sözləri “**2019-cu**” sözləri ilə əvəz edilmişdir.

29 iyun 2018-ci il tarixli **1217-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 17 iyul 2018-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1433**) ilə 2-ci maddədə “**2019-cu il yanvarın**” sözləri “**2018-ci il sentyabrın**” sözləri ilə əvəz edilmişdir.